

# Dövlət xəstəxanalarında yeyilən milyonlar...

*Bu günlərdə Ucar Rayon Mərkəzi Xəstəxanasının bir illik dəftərxana xərclərinə 10 milyon manatlıq tender elanı və bu tenderi "Köçəkli" MMC tərəfindən qazanılması ilə bağlı xəbər yayılıb. Verilən məlumatda bildirilir ki, Ucar Rayon Mərkəzi Xəstəxanasına dəftərxana və təsərrüfat malları alınması üçün 9 747 213 AZN (doqquz milyon yeddi yüzqırx yeddi min iki yüz on üç manat) ayrılıb.*

Səh.6


UNİKAL

№34 (1973) 13 iyul 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Ceyhun Bayramovun mübahisəli qərarı

## Yay tətilini qısaltmaqla təhsilin səviyyəsini artırmaq mümkündürmü?

*Təhsil Nazirliyi tədris ili ilə bağlı yeni fikrə düşüb. Nazir Ceyhun Bayramovun son açıqlamasından belə qənaətə gəlmək olar."Bu müddətin çox və ya az olmasını demək üçün digər inkişaf etmiş ölkələrlə müqayisə etməli idik. Gəldiyimiz nəticə o idi ki, həmin ölkələrdə orta hesabla dərs ili 36-38 həftədir" - deyə cənab Bayramov İctimai Televiziyaya müsahibəsində deyib. Onun sözlərinə görə, Azərbaycanda təhsil 32 həftə olan təqdirdə, il ərzində şagirdlər 4-6 həftə daha az oxuyurlar. Ümumilikdə isə bizdə və digər ölkələrdə gözlənti və standartlar eynidir. Beş həftəni orta müddət götürsək, bu, 11 il ərzində 55 həftə edir. Bunu da tədris ilinin müddətinə böləndə təxminən 2 akademik il edir. Nazir qeyd edib ki, dəyişiklik hesabında Təhsil Nazirliyinin məntiqi odur ki, tədris ilini 2 həftə uzatmaqla 11 il ərzində əlavə 22 həftə tədris vaxtı qazanırıq. Proqramın bəlli həcmi və ağırlığı var.*

Səh.8

Səh.3



# Bir məhkəmə sədri və üç hakim işdən çıxarıldı

## "Birbaşa müharibə aparmaq mümkün deyil, buna imkan vermirlər"



*Qarabağ münaqişəsinin həlli ilə bağlı səylər artırılsa da, əzəli torpaqlarımıza qayıtmaq imkanımız hələ də reallaşmır. Azərbaycan dövləti ərazi bütövlüyümüzün qorunacağına, hər hansı güzəştə gedilməyəcəyini bəyan edir. Amma təəssüf ki, hazırkı status-kvo Azərbaycanın əleyhinədir. Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Unikal" qəzetinə müsahibəsində Qarabağ münaqişəsinin həlli ilə bağlı mövcud durumu analiz edib.*

Səh.4

## Çoxuşaqlı ailələrə hansı güzəştlər şamil olunur?



*Azərbaycanda çoxuşaqlı ailələrin sayı azalır. Bu barədə açıqlamasında Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov məlumat verib. Çoxuşaqlı ailələrin azalmasının səbəbi açıqlanmasa da, ekspertlər bunun müxtəlif təsirlər nəticəsində baş verdiyini söyləyirlər. Əsas səbəbin isə çoxuşaqlı ailələrə lazımı səviyyədə sosial dəstəyin göstərilməməsi, belə ailələrin stimullaşdırılmaması ilə bağlıdır.*

Səh.10

## Hacıbala Abutalıbova çətin sual...



*Bakıda fəaliyyət göstərən kinoteatrlarla bağlı maraqlı məqam üzə çıxıb. Belə ki, onların kağız üzərindəki sayı reallıqda mövcud olanlarla üst-üstə düşmür. Bir vaxtlar insanların gərgin iş həftəsindən sonra öz istirahətlərini təmin etmək üçün baş çəkdikləri yerlərdən biri də kinoteatrlar idi.*

Səh.9